# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

Siyasət, təhlükəsizlik, sabitlik və inkişaf, hərb və sülh bu gün də bəşəriyyəti düşündürən problemlər olub bədii ədəbiyyatın əsas mövzularındandır. Əvvəlki dövrlərdə yaranan detektiv əsərlərdə siyasi motivlər özünü az da olsa göstərirdi. Məsələn, Aqata Kristinin «Baş nazirin oğurlanması» əsərində İngiltərənin baş nazirinin oğurlanmasından, bu cinayəti törədənlərə qarşı Puaronun apardığı uğurlu təhqiqatdan, onun sayəsində siyasi gərginlik içində olan İngiltərəni gözləyən fəlakətin qarşısının alınmasından bəhs olunur.

İngiltərənin baş naziri Man mənsub olduğu partiyada «Döyüşən Man» adı ilə tanınmışdı. O, var gücü ilə genişlənməkdə olan pasifistlərin təsirinə qarşı qətiyyətlə mübarizəyə aparan şəxs idi və o, İngiltərənin nəinki baş naziri, «o İngiltərənin özü demək idi» və onu öz nüfuz dairəsindən uzaqlaşdırmaq Britaniyaya sarsıdıcı və iflicedici zərbə endirmək idi». Müttəfiqlərin birgə keçirəcəyi konfrans barədə məlumat verən ümumi Palatanın lideri Lord Ester nazirin oğurlanmasının bununla bağlı olduğunu, onu tapmaq ümidi ilə yanına gəldiyini detektiv Puaraya bildirir. Konfransın cümə axşamı Versalda keçirməli olduğunu bilən Ester deyir: «Baş nazirin konfransda iştirakı həyatı zəruriyyətdir. Aramızdakı alman casuslarının başladıqları və müdafiə etdikləri pasifist təbliğatı çox fəallaşıb. Ümumi fikir belədir ki, konfransda dönüş nöqtəsini güclü şəxsiyyət olan baş nazirin çıxışı müəyyən edəcəkdir». Onun konfransda iştirak etməsinin nə qədər vacib olduğunu bilən Esterin dediklərindən Puara belə bir nəticə çıxarır ki, «baş nazirin oğurlanması, konfransda onun iştirak etməsinə imkan verməmək üçün bilavasitə edilən cəhddir».

Puara baş vermiş hadisənin təəfərrüatını öyrənməyə çalışır. Ester baş nazirin Fransada oğurlandığını bildirir. O səhər Fransaya getməli idi, səhər Parisə yola düşən nazir bu axşam donanma komandanının qonağı olmalıydı. «Baş nazirin LaManş boğazından eskadron mina gəmisi ilə aparıldığı, Bulonda baş qərargahdan bir maşın və baş komandanın yardım düşərgəsindən də bir adamın onu qarşıladığını, onlar Bulondan yola düşsələr də gəlib çıxmadıqlarını, aldadıldıqlarını, maşının da, yardım düşərgəsindən olan adamın da «qondarma» olduğunu bildirir. Puaroya qondarma maşının, içində də Danielzin burnuna xloroform tutulmuş, ağzı və əlləri bağlı halda «C» fermasının yaxınlığında tapıldığını xəbər verirlər.

Puaronun yanına gələn palatanın lideri hərbi nazirliyin üzvü, baş nazirin yaxın dostudur. Ölkənin ən məşhur adamı, sözü bir vaxt Belçika üçün qanun olan və yenə də olacaq şəxsin zəmanəti ilə bu işin tədqiqatı Puaroya tapşırılır. Onu Duvra gedən xüsusi qatarla, bir hərbçi və cinayət axtarışı şöbəsinin bir əməkdaşı ilə yola salmaq qərarına gəlirlər. Nazirin oğurlanmasının törətdiyi çaxnaşmalar almanlar üçün sərfəli olduğunu anlayan Puaro bu fikirdədir ki, «əgər baş naziri oğurlayanlar onu bir yerdə gizli saxlayarsa, belə olan təqdirdə yenidən hər iki tərəfin bu vəziyyətdə razılığa gəlməsi üçün onların əlində üstünlükləri var».

Skotland Yardın bütün əməkdaşları cəlb olunmuş bu tədqiqat işində Puaro hər şeyi götür-qoy edir, əmin olur ki, onların Fransanı ələk-vələk etmək təşəbbüsü səhvdir, geri dönmək qərarına gəlir. Baş nazirin oğurlanması, katibi Danielz, sürücü, əslən irlandlı O Morfi və bütün olub keçənlər haqqında düşünən Puaro nazirin oğurlanmasının başlanğıcının İngiltərədə olduğunu anlayır. «Ardıcıllıqla işləmək üçün gərək əvvəldən başlayaq. Və bu işin də başlanğıcı İngiltərədədir. Buna görə də biz İngiltərəyə qayıdırıq». Onun hansı nəticələrə əsasən belə etdiyini düşünən dostuna Puaro bildirir ki, yaxşı xəfiyyə enerjili, ora-bura baş vuran, «tozlu yola sərilib maşın təkərlərinin izlərini mikroskopla axtarmasındansa» düşüncəylə, ağılla hərəkət etməlidir: «Amma mən Herkyül Puaro sizə deyirəm ki, məsələ belə deyildir, əsil açar içəridə, - burdadır! O, əlini alnına vurdu - görürsünüz, Londondan mənim getməyimə ehtiyac yox imiş. Londondakı mənzilimdə sakitcə oturmaq üçün kifayət edərmiş. Əsas məsələ içəridəki kiçik beyin hüceyrələridir. Onlar gizlincə və sakitcə öz işlərini o vaxta qədər görürlər ki, birdən mən tələb edirəm və barmağımı bir yerə qoyub deyirəm: «Baş nazir burdadır. Və belə də olur. Məntiq və ardıcıllıqla insan istənilən şeyə nail ola bilər». Fransaya gedişini - «çaparaq» gedişini «ağılsız bir səhv» kimi qiymətləndirən Puara, «baxmayaraq ki, həddindən artıq gecdir, mən dərhal işə başlayacağam», - deyir.

Puaro öz əqli və məntiqi düşüncələri əsasında baş naziri tapır. Onun Vindzordan Londona gedərkən oğurlandığını bilir. Puaro təyin edir ki, Baş nazir öz maşınında ikən kapitan Danielz xloroform yastıqcasını onun üzünə sıxır, nazir huşunu itirir. Danielz danışıq turubkasını götürür və sağa dönmək üçün O Morfiyə göstəriş verir, sürücü şübhələnmədən göstərişə əməl edir. Bir neçə yard aşağıda get-gəliş az olan yerdə böyük bir yük maşınının xarab olduğunu düşünür. O, O Morfiyə dayanmaq üçün siqnal verir. O Morfi sürəti azaldır. Naməlum adam yaxına gəlir, Danielz başını pəncərədən çıxarır, xloroform kələyini təkrar edir. Bir neçə saniyədən sonra iki nəfər köməksiz adamı maşından dartıb çıxarır, onları başqa maşına mindirir, onların yerini özgə iki adam tutur.

Puaro baş nazirin Fransada oğurlandığı barədə illüziyanı dağıdır. Danielzin yalançı planını üzə çıxarır və baş nazirlə onun sürücüsünü «Danielzin xalası» adlanan «işsiz Everard»ın axtarışda olan qadının evində tapırlar».

Puaronun səlist məntiqi, ardıcıl düşüncələri nəticəsində Mak Adam vaxtında tapılıb müttəfiqlərin konfransında iştirak edir, gurultulu alqışlarla qarşılanır.

Burada peşəkar detektiv Puaronun siyasi arenada tanınmış baş nazirə qarşı hazırlanan cinayətin üstünü açması, bəzi siyasi məsələlər əsərdə öz əksini tapır.

Çingiz Abdullayevin siyasi detektiv əsərləri yaradıcılığında mühüm yer tutur. Siyasət insanın yaşadığı mühitdən çox asılıdır. Yazıçı da ədəbiyyata elə bir zamanda gəlib ki, o dövrdə siyasətdən kənarda həyat təsəvvürə gətirilə bilmirdi. Ç.Abdullayevin hər bir əsərində demək olar ki, siyasi-ictimai məsələlərə yer verilir. Elə əsərləri vardır ki, bunlarda ötəri xarakter daşıyır, elə əsərləri də vardır ki, sırf siyasi detektiv («Qanın üç rəngi», «Gedər-gəlməz»...) əsərlərdir. Bir çox siyasi xarakterli əsərlərində dağılmış Sovet imperiyası, onun süqutuna səbəb olan amillər, bu imperiyanın dağılmasında birbaşa əli olan qüvvələr, səriştəsiz hakimiyyət üzvləri, rəhbərlər, dağılmış sovet imperiyasının faciələrini yaşayan insanlar, onların taleyi, itirdiklərimiz, qazandıqlarımız, uğurlarımız, uğursuzluqlarımız, xarici siyasət sahəsindəki nöqsanlarımız, daxili-xarici siyasətini kəskinləşməsində əli olan xarici qüvvələrin rolu - SSRİ-nin tərkibində 70 il bir yerdə yaşamış bir yerdə olmuş millətlərin başına gələn faciələri ümumiləşdirir.

«Qanın üç rəngi» romanı proloqla başlayır. Proloqda məlum olur ki, adı bir qədər gülüş doğursa da, «Pomidor» adlanan restoran-sahibi, erməni və azərbaycanlı olan bakılıların yığışdığı, sevimli bir yeridir. Bura yığılanlar artıq XX əsrin səksəninci illərindən sonra Qarabağ hadisəsi ilə bağlı yerindən-yurdundan qovulanlardır, keçən sülh içində yaşadıqları dövrləri yada salır, o günlərin həsrətini çəkirlər, burada ağlayan kişilər - azərbaycanlı, rus, erməni, cuhud, ləzgi, gürcü keçmiş günləri hüzünlü bir kədərlə yada salır. Taleyinə bir yerdə yaşamaq, sonra bir-birinə qənim kəsilmək düşən iki millətin başına gələn müsibətləri yaşayan günahsız insanların toplaşdığı bu yer bir növ özünüdərketmədir.

Çalınan həzin musiqi sədaları altında restorana toplaşan, bir-birinin sanki qəminə şərik olan insanlar arasında keçmiş podpolkovnik Abramov da vardır. O da Bakını, bu şəhərin gecələrini, park və bulvarını, meydan və fontanlarını sevirdi. Bədbəxtlikdən Abramov iki qızı yaşayan şəhərə qayıda bilməz. Onun arvadı azərbaycanlı idi. Baş verən hadisələr zamanı o qarışıqlıqda Bakıda çox ailələr əzab çəkdi. Bu gün o daha dərdlidir, eyni zamanda qəzəblidir. Bu gün burada xoşagəlməz tiplər oturub, onunla görüşmək üçün bura gəliblər, Abramova onlarla əməkdaşlıq etməyi təklif edirlər. Abramov isə bu təklifi rədd edir, o yaxşı başa düşür ki, o, Azərbaycan DİN-nin işçisi olub və erməni olmayan bu tiplərlə əməkdaşlığın mahiyyətini dərk etdiyindən, qətiyyətlə onları rədd edir, onlar isə onun yaxşı qazanacağını çox gərəkli bir işdə bulunduqlarını deyir. Abramov bu qazanacağı pulun əvəzində onlara bəzi məlumatları, bir neçə detalı ötürməli idi. Onların istədiklərini yaxşı anlayan Abramov qəzəbindən partlayır. Özünü saxlaya bilməyib müsahibinin pencəyinin yaxasından tutub özünə tərəf çəkib, qəzəblə «sənin kimilər mənim evimi dağıtdı, taleyimi daşa çırpdı, uşaqlarımın həyatını korladı, sən belə olan halda istəyirsən, səninlə işləyim? Rədd ol burdan...»-qışqırır, pulun boş yerə verilmədiyini, müsahibinin onu dilə tutmaq cəhdinin arxasında nələr durduğunu yaxşı bildiyindən Abramov onlara uymur, arvadının azərbaycanlı olduğunu, qarşısındakıların yenə nəsə törədəcəyini, insanların həyatını yenidən bütünlüklə alt-üst edəcəklərini nifrətlə üzlərinə çırpır və onları qovur. Həmin hadisədən beş saat sonra kirayə tutduğu evin girəcəyində keçmiş Azərbaycan DİNnin polkovniki Vladimir Abramovun meyidi tapılır. Killer-qatil işini çox səliqə-səhmanla görmüş, güllə ürəyindən dəymişdi.

Əsərdə SSRİ-nin süqutu, respublikaların müstəqilliyi uğrunda mübarizəsi illərində yurduna, ölkəsinə, sevimli Tbilisisinə həsrət qalan David Aleksidze kimi insanların başına gələn faciələr də ümumiləşdirilir..

Əsrin faciələrini yaşayanlardan olan David Aleksidze Z.Qamsaxurdiyanın mühafizəçisi olub, keçmiş Gürcüstan rejimini sevməyənlərdən biri idi. Dövlət Təhlükəsizlik polkovniki Qamsaxurdiyanın tərəfdarlarından olsa da, onun odlu pərəstişkarlarından da olmamışdı. Bundan başqa, Qamzaxurdiya dissident kimi fəaliyyət göstərərkən Aleksidze Gürcüstan Təhlükəsizlik komitəsinin sıralarında böyük leytenant idi. Qamsaxurdiya prezident seçilməmişdən öncə Davud onun şəxsi mühafizəsindən birinə rəhbərlik edir. Aleksidze belə hesab edirdi ki, o prezidentə xidmət etmir, yüksək posta layiq gördüyü bu adamı xalqı sevir. Ona görə də, ona inanır, baxmayaraq ki, o zaman dostlarının böyük bir hissəsi digər tərəfə keçdilər. Doxsan birinci ilin faciəli dekabr günlərində qanuni seçilmiş prezidentini müdafiə etmək üçün bütün imkanlarından istifadə etdi. Onun tərəfdarları ilə bir oldu. Nəhayət, onlar Gürcüstanı tərk etməli olur, o belə hesab edir ki, düzgün hərəkət edir. O vaxtdan keçmiş DTK polkovniki Moskvada yaşamalı olur. Əvvəlcə bu ona çətin olsa da, yavaş-yavaş bu həyata alışan Davud dostlarının köməyilə kommersiya ilə məşğul olan banka işə düzəlir və bir il sonra mühafizəçilərə rəhbərlik edir, avtomobillə təmin olunur, özünə paytaxtda mənzil alır, neçə illər görmədiyi ailəsini yanına çağırır.

Belə bir vaxtda ona öz vətəninə qayıtmasına təminat verənlər meydana çıxır, onun işlə, yaxşı pulla təmin olunacağını vəd edirlər. Bir şərtlə ki, öz şəhərinə qayıdıb burada öz evində yaşayacaq və onların dediklərini yerinə yetirəcək.

Davud bu müqaviləni qəbul etməklə, vətəni Gürcüstanın əleyhinə işləməliydi. Doğrudur, o doğma şəhərinə qayıtmaq, vətənində yaşamaq, işləmək istəyirdi. Amma bu yolla yox. Onun üçün hökumətin başında kimin oturacağının fərqi yox idi. O, keçmiş prezidentin mühafizəçisi işləmişdi, amma ölkəsinin düşmənlərinin dediyi kimi ömründə işləməzdi. Acından ölsə də, bir tikə çörəyə möhtac qalsa da, vətənə, xalqa xəyanət etməyəcəyini bilirdi və ona görə də bu tiplərin təklifini rədd edir. «Araqvi» restoranında onunla görüşən, onu razı sala bilməyən qüvvələr Davidi öldürmək fikrinə düşür. Abramovdan fərqli olaraq diqqətli və ehtiyatlı David düşmənin planını duyur və ehtiyatlı tərpənir, evinə qayıdarkən blokda əli silahlı qatili zərərsizləşdirə bilir və eyni zamanda qatili onu öldürmək üçün göndərən Axsaq Givinin-məşhur «vorzakon»-Givi Kobaxidze olduğunu öyrənir.

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 6-cı səhifədə)*

Gürcü DTK-nın fəaliyyət göstərdiyi dövrdə - səksəninci illərdə o narkobizneslə məşğul olurdu, Abxaziya və Gürcüstanda fəaliyyət göstərən narkotiklərin böyük bir hissəsinə nəzarət edirdi. Böyük imperiyanın süqutundan sonra da nüfuzunu saxlaya bilmişdi. Axsaq Givinin adı çox şey deyirdi və Aleksidze yanılmamışdı. «Araqvi» restoranında ona təklif edilən işin arxasında Axsaq Çivi dayanırdı. Onun da arxasında başqa şey dayanırdı. O və onun ailəsi artıq məhkum idilər və o killeri - onu öldürmək üçün göndərilən qatili öldürsəydi də artıq o anlayır ki, ailəsini və özünü qurtarmaq üçün bir şans var və o, bu şansdan istifadə etmək qərarına gəlir, FTX-yə müraciət edir.

Əsər üç hissəyə bölünür. Birinci hissə «Ağ» adlanır. Gümüşü rəngli «Feat» maşın, beş dəqiqə sonra «Ford-Kontur» avtomobilinin sərnişinləri görünür. Hər iki avtomobildən düşən adamlar görüşür, «Fordun» sahibi Alberto Trappatoni ingiliscə müraciət edir və özünü təqdim edir. Söhbət əsasında məlum olur ki, Trappatoni görüşdüyü şəxs Yozas Qruodis familiyalı şəxs (bu onun əsil adı deyil) SSRİ DTK-nın keçmiş podpolkovniki olub, Sovet kəşfiyyatında işləyib, BBİnin, xarici kəşfiyyat idarəsinin işçisi olub, orqandan xaric edilib, doxsan birinci ildə bir müddət Litvada yaşamış, sonra Almaniyaya mühacirət etmişdir. Hal-hazırda keçmiş DTK əməkdaşlarının bir qrupuna rəhbərlik edir, keçmiş Dronqo ən çox sevdiyi yeganə qadını (Natalya Breyi) itirir. O özünü qurban verir, qatilin atdığı güllənin qabağına keçir. Kupseviç «Mavi mələklər» romanının qəhrəmanı Düpreyə bənzəyir.

Dronqonun başına gələn bu müsibətin Kupseviçin də başına gəldiyindən bu dərd onları birləşdirirdi və bu ağrılar, göynərtilər, onları bir-birinə yaxınlaşdırmışdı. Kupseviç hazırlanan yeni bir dəhşətli terrorun qarşısını almaq üçün Dronqoya ona görə müraciət edirdi ki, onu yaxşı tanıyırdı. Professional bir qabiliyyət sahibi olduğunu bilirdi. İstefaya çıxmış Dronqo isə artıq bu işlərə baş qoşmaq istəmirdi. Kupseviç və onunla birlikdə gələn Vladimir Vladimiroviç (DTK-nın əməkdaşı idi, iki il əvvəl Zaqafqaziyada fəaliyyət göstərən mafiyaya qarşı əməliyyatda Dronqo onlara kömək etmişdi və o vaxt onu görmüşdü) əməliyyatda - bu işdə onlara yardımçı olacaq Dronqonu razı salmağa çalışır. Vladimir Vladimiroviç FTX-nin yeni rəhbərliyinin dəvətini onlara çatdırmaq üçün gəldiyini deyirsə də, Dronqo bu dəvəti qəbul etmir. Kupseviç ondan yaşlı, eyni zamanda əlil olsa da bu işi qəbul etdiyini dedikdə, Dronqo onun Polşası üçün and içdiyini və onun dövlətinin hələ də bu quruluşda fəaliyyət göstərdiyini və bunun üçün andının əhəmiyyət kəsb etdiyini vurğulayır, özünün isə ölkəsinin (Sovet İttifaqı) andının hansı ki, onun qanunları onun üçün əziz idi, indi artıq heç bir əhəmiyyət kəsb etmədiyini təəssüf hissiylə bildirsə də, Vladimir Vladimiroviç və Kupseviç söhbətin insanların taleyinduyduğu məmunluq hissini gizlətmir və o adamlar arasında axtarışda onun şəxsən tanıdıqları olduğunu da eşitdiyini qeyd edir.

Yazıçı keçmiş sovetlər ölkəsinin ərazisində, xüsusilə Qafqazdakı gərgin vəziyyətə diqqətimizi cəlb edir. Narkotik maddələrin Qafqaz vasitəsilə Orta Asiyaya ötürüldüyünü, Qazaxıstan və Qırğızıstanda buna nəzarət etmək mümkün olsa da, Qafqaz sərhədlərindən gələn həyəcanlı xəbərlərin narahatlıq doğurduğunu, orada hamısının aldandığını, bu işə qoşulan hərbçilərin də olduğunu deyən Savelyev gürcü və Azərbaycan sərhədlərində nəzarətin zəif olduğunu, istənilən yükün yoxlanmadan buraxıldığını deyir və etiraf edir ki, onlar əvvəllər elə düşünürdülər ki, yalnız bu silahlar çeçen boeviklər üçündür. «İndi görürük ki, mafiyanın fəaliyyəti müharibə zamanı nəinki azalmır, əksinə mafiya daha da aktivləşib».

Əsərdə narkotika Givi Kobaxidzenin dəstəsinin vasitəsilə Moskvaya ötürülür. Givinin məşhur quldur («vor zakon») olub çoxdan bu işlə məşğul olduğunu, doxsanıncı illərdə DTK-nın izinə düşdüyü, keçmiş DTK-nın informatoru, 90-cı illərdə Moskvada olmuş «razborka»lardan yaxasını qurtara bilmiş, artıq onlarla işləməyən, keçmiş DTK zabitləri ilə yaxşı əlaqə saxlayan, Moskvada Axsaq Givi adı ilə məşhur olan görürük. Onunla əlaqə saxlayan digər qrupun rəhbəri Leonid Matyuxin yükü Axsaq Gividən alıb Qərbi Avropaya ötürməkdə məsul olan cinayətkardır.

Burada keçmiş bakılı Abramov və salmış keçmiş DTK və DİN-nin keçmiş zabitləri ilə əlaqə saxlayırlar. Artıq bu qrupun izlənməsi nəticəsində məlum olub ki, Matyuxinin rabitəçiləri onları maraqlandıran adamlarla görüşürlər. Bu qrup professional muzdlu qatillərdən ibarət «özünəməxsus bir dəstədir», onlar çox hazırlıqlı, keçmiş DTK və DİNnin əməkdaşlarından təşkil olunub. Bu qrupa Yozas Qruodis (əsl adı Vita Ustas Qutauskas) rəhbərlik edir. Və o həqiqətən əvvəllər Birinci Baş İdarədə işləyib. Polşa kəşfiyyatçılarının təsdiq etdiyi kimi, Qruodisin qrupu keçmiş SSRİ ərazisində terror aktı hazırlayır. Amma onun harada, nə vaxt, kimə qarşı hazırlandığının vaxtında aşkarlanması vacibdir. FTX əməkdaşları şübhələnir ki, Qruodisin qrupunun bu aksiyası Qafqazla bağlıdır və Abramovun ölümü, Aleksidzeyə edilən təklif, «Axsaq Givinin və Matyuxinin dəstələrinin Qruodisin dəstəsi ilə əlaqəsi aksiyanın bu cür səciyyə daşımasına güman verir». Bu, təkcə mafiya sifarişi deyil, əksinə, Qruodisin dəstəsi terror aktları törətməkdən ötrü mümkün icraçıları məhz mafiyanın vasitəsi ilə tapmağa çalışır. Onlar özləri Matyuxinin və onun vasitəsilə Kobaxidzeni tapdıqlarına əmindirlər. Görünür, fikirləşirlər ki, bu yolla hərəkət etmək daha məqsədəuyğundur.

Yazıçı bu terror aktında keçmiş DTK-nın ən peşəkar üzvlərinin iştirak etdiyini göstərir. Bunlar SSRİ DTK-nin yeddinci idarəsinin keçmiş mayoru-DTK orqanlarından hələ 90-cı ildə çıxarılan Miraslov Kupça (O xarici nəzarət işləri ilə məşğul idi. Məlum olub ki, o ikona

# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*

DTK-nın professional işçilərindəndir. Onun qızı və boşandığı arvadı Vilnüsdə yaşayır (onun həyatı onu məyus etmiş və yeni həyata başlamaq istəyir). O, ingilis dilindən başqa alman və türk dillərini yaxşı bilir. Mütəxəsislər onu yaxşı DTK işçisi kimi tanıyırlar.

Ondan istifadə etməklə xarici kəşfiyyatçılar SSRİ ərazisində terror aktı törətmək istəyirlər. Polşa kəşfiyyat idarəsi əməkdaşları bundan xəbər tuturlar. Avropada işləyən bir qrup keçmiş DTK zabitlərindən hazırlanan, keçmiş DTK podpolkovnikin - (Yozas Qruodisin hazırkı adı) - professional bir şəxsin rəhbərlik etdiyi qrup haqqında Dronqoya əfsanəvi Polşa kəşfiyyatçısı Kupseviç xəbər verir.

Yazıçı Kupseviçin də şəxsiyyəti, fəaliyyəti ilə bağlı açıqlama verir. Ən yaxşı professional kəşfiyyatçı olub, uzun illər İnterpolda işləmiş, eyni zamanda OON komitəsində xüsusi ekspert olmuş Kupseviç Cənubi-qərbi Asiya ilə bağlı təhlükəli əməliyyata-narkotik alverçilərinə qarşı aparılan əməliyyata rəhbərlik etmiş, o zaman Dronqonun birinci rəhbəri olmuşdu. Bu dəhşətli, təhlükəli əməliyyat zamanı onlar çoxlu yoldaşlarını itirirlər. Avtomobilə yerləşdirilmiş partlayıcı işə salınır, sükanın arxasında oturan qadın həlak olur və Kupseviç ayaqlarını itirir.

Yazıçı bundan sonra Polşada baş verən ictimai-siyasi hadisələrə, ölkədə gedən dəyişikliklərə diqqəti cəlb edir. Bir çox ölkələrin kəşfiyyatçıları kimi onun da sonrakı taleyinin üzünə gülmədiyini, invalid Kupseviçin artıq heç kimə lazım olmadığını qələmə alır. O işdən çıxarılır və bir möcüzə nəticəsində muzeylərdən birinə gecə növbətçiliyinə təyin olunur. Dronqo Romadan keçib Avstriyaya gətdiyi zaman onunla görüşür və Dronqoya bu səyahət də baha başa gəlir. Bu dəfə dən, günahsız insanların başına gələcək müsibətlərdən getdiyini Dronqoya xatırladır və belə ağır vəziyyətdə onun köməyinə professional - bir insanın, təcrübəli bir kəşfiyyatçının, detektivin köməyinə ehtiyac duyulduğunu bildirir.

Dağılmış sovet quruluşunu məhv olmuş qüdrətli, güclü, möhtəşəm «dinozavrlara» bənzədən Kupseviç onun küskün qəlbini almağa çalışır, ona sərhədləri bilinməyən beynəlxalq səviyyəli analitik olduğunu, insanlara gərəkli olduğunu bir daha xatırladır və nəhayət, Dronqo FTX-nin rəhbərliyi ilə görüşməyə yalnız onların qəlbini qırmamaq üçün razılıq versə də yenə tərəddüd edir. Qruodisin qrupuna Arkadiy Qalinskiy - DTK-nın Avstriyadakı keçmiş rezidentinin də daxil olduğunu (onun dövründə Kupseviçin Mark Lenarisi və Dronqonun əziz adamı Natali Brey həlak olub) eşidəndə Dronqo diksinir, əlləri əsir. Dronqoya bir insan kimi günahsız yerə həlak olmuş insanları xatırlatmaqla onun humanist duyğularını oyatmış olur.

FTX-nin generalı Cernakov Dronqonun BMT-də ən yaxşı analitik olduğunu, onun yüksək qiymətləndirildiyini, onun iş qabiliyyətini, bütün işlərdə müvəffəqiyyət qazandığını, kəşfiyyat işlərində qeyri-adi imkanlarını yaxşı bildiyindən onunla əməkdaşlıq etmək üçün bu işə dəvət edir. Onların keçmiş direktoru Primakovun da onu çox az tapılan yaxşı «spesialist» olduğunu bildirdikdə Dronqo başa düşür ki, onun haqqında belə ətraflı məlumatı kim verib. Eyni zamanda general Cernakov onunla görüşü zamanı qonşu ölkələrdə nələr baş verdiyini, Qafqazdakı qeyri-stabil vəziyyəti öyrənmək üçün Dronqo kimi yerli xalqın dilini bilənlərə ehtiyac olduğunu bildirir və onun bu təklifi qəbul etməsini, bu ezamiyyətə getməyə razılıq verdiyindən gürcü Aleksidze ilə bağlı məsələlərin də bu işlə əlaqəli olduğu şübhə doğurmur. Bir ay əvvəl Moskvada podpolkovnik Abramovun (doxsanıncı ilin hadisələrindən sonra Bakıdan çıxan, əvvəllər DİNdə Azərbaycan da işləyən, milliyyətcə erməni olan, kommersiya strukturunda işləyən, arvadı azərbaycanlı olan, siyasətdən uzaq olmağa çalışan Abramovun) qətli, Gürcüstan DTK-nın keçmiş polkovniki Davud Aleksidzeyə Abramovun ölümündən bir neçə gün sonra olunan belə analoji təklif yada salınır. Savelyev xatırladır ki, doxsan ikinci ildə Gürcüstanda Gürcüstanın keçmiş prezidenti Zviada Qamzaxurdiyanın mühafizəçisi olmuş Aleksidze, ona qədər DTKda işləyib. Onunla görüşən Givinin nümayəndəsi ona əvvəlki xidməti işinə qayıtmağını, Şvernadzenin mühafizəçisi təyin edilməyə kömək edəcəyini, bunun müqabilində onlarla əməkdaşlıq etməli olacağını təklif edəndə Aleksidze imtina etdiyindən onu öldürmək istədiklərini, ailəsinin və özünün təhlükəsizliyinin təmin olunması üçün polkovnik Aleksidzenin FTX-yə müraciət etdiyini və onunla ailəsinin FTX tərəfindən qorunduğunu söyləyir. David Aleksidze tam əmindir ki, bu çox ciddi məsələdir, doğurdan da, onu Gürcüstana qaytarmaq istəyirlər. FTX-ni maraqlandıran da budur ki, niyə mafiya istəyir Davud Aleksidze Tiflisə qayıtsın? Nəyə görə mütləq Şvernadzenin mühafizəçisi olsun? Eyniylə bu təklif Abramova da edilib. Onu Bakıya qaytarmaq mümkün olmayıb. Deməli, onların təcrübəsindən yararlanmaq istəyiblər. Axı o, DİNdə işləyib, özü də narkotiklərlə mübarizə işi ilə məşğul olub.

FTX-yə o da məlumdur ki, Matyuxinin cinayətkar dəstəsindən olan adamlar Pribaltika və Şərqi Avropada məskən ticarəti ilə məşğul olduğundan qovulub. Baxmayaraq ki, dəqiq məlumatlar əldə edilməmişdir), digər şəxs SSRİ DTKnin 12-ci şöbəsinin keçmiş podpolkovniki çox yaxşı mütəxəssis (DTK-dan xaric edilib «Bakatin təmizləmələri» zamanı) Piskunov, üçüncü ən təhlükəli tip Qruodisin qrupunda DTK-nın ikinci baş idarəsinin mayoru (professional qatil) Nikita Korsunovdur. O, lazım gələndə adamları aradan götürməklə məşğul olanlardan ibarət xüsusi qrupa daxil olan peşəkar qatildir. Dördüncü şəxs isə Birinci Baş İdarənin Avstraliyadakı keçmiş rezidentidir, işindəki natəmizliyə görə orqandan çıxarılıb.

Bu cinayətin törədiləcək məkanını təyin etmək üçün Dronqo çox təhlükəli vəziyyətlərlə qarşılaşır. İstənilən vaxt ona baş verəcək hadisədə yardımçı olmayacaqlarını bildirən general Cernakovu yaxşı başa düşən Dronqoya həm də xatırladır ki, unutmasın ki, bu dəfə ona qarşı ən professional DTK işçiləri var, hansı ki, keçmişdən çox yaxşı hazırlıqlıdırlar.

Ömrünün çox böyük hissəsini ən təhlükəli cinayətkarlarla mübarizədə keçirən Dronqo ona tapşırılan işin böyük məsuliyyətini, həm də təhlükəli olduğunu çox yaxşı başa düşürdü. O, əsl kəşfiyyatçı, detektiv idi və işini haradan başlayacağını da yaxşı bilirdi. Avropanın iri ölkələrindən olan Almaniyanın Frankfurt-na-Mayne şəhərində çox olub. Bu şəhərə səfərində onun üçün ayrılan rus əməkdaşları vasitəsilə keçmiş DTK -nın ən təcrübəli kəşfiyyatçılarının da iştirakı ilə hazırlanan terror aktının harada və kimə qarşı törədiləcəyi haqqında məlumatı əldə edir.

*(Davamı var)*